**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

# GÜNAY KAMİL qızı MƏMMƏDOVA

# MÜASİR AZƏRBAYCAN AİLƏSİNDƏ GENDER PROBLEMİNİN SOSİAL-PSİXOLOJİ ASPEKTLƏRİ

6114.01– Sosial psixologiya

Psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2018**

İş Azərbaycan Dillər Universitetinin Psixologiya kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: psixologiya üzrə elmlər doktoru,
professor **Səməd İsmayıl oğlu Seyidov**

Rəsmi opponentlər: psixologiya üzrə elmlər doktoru,
professor **Ərəstun Təriş oğlu Baxşəliyev**

psixologiya üzrə fəlsəfə doktoru,
dosent **Elnarə Əhməd qızı Əhmədova**

Aparıcı təşkilat: **Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Fəlsəfə və sosial psixologiya kafedrası**

Müdafiə "_____" "_____________" 2018-cı il saat___ da Bakı Dövlət Universitetinin nəzdində psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD.02.014 Dissertasiya şurasının iclasında olacaqdır.

Ünvan: AZ 1148, Bakı şəhəri, Zahid Xəlilov küçəsi 23, II korpus, auditoriya 901

Dissertasiya ilə BDU-nun elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" "_________" 2018-ci ildə göndərilib.

FD. 02.014 Dissertasiya şurasının elmi katibi — psixologiya üzrə fəlsəfə doktoru, dosent **Rəşid Vəkil oğlu Cabbarov**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Milli mənəvi dəyərlər və adət-ənənələrin ümumbəşəri dəyərlərlə qovuşduğu bir şəraitdə cəmiyyətin özəyini təşkil edən ailə, onun əxlaqı, tərbiyəsi, ailədaxili münasibətlər aparıcı amillərdən biri kimi diqqəti cəlb edir. Qloballaşan dünyada yeni dəyərlərin ailələrə təsiri nəticəsində özünü göstərən sosial təbəqələşmə, cinslər arasındakı qarşdurmanın artması gender probleminə keyfiyyətcə yeni dəyişikliklər gətirmişdir. Müasir dövrdə ictimai-siyasi hadisələrin təkində, xüsusilə qadın təhsilinin sürətli inkişafı axarında gender problemi cəmiyyətdə əsas problemlərdən birinə çevrilmişdir.

Qeyd etmək lazımdır ki, dünya yaranandan cinslər arasında sanki gizli şəkildə olsa da bir mübarizə gedir. Tarixə nəzər salsaq görərik ki, qadınlar cəmiyyətdə də, ailədə də kişilərə nisbətən ikinci planda olublar. Əvvəllər qadınlar haqqında danışarkən onların cəmiyyətdəki sosial statusunu ailədəki rolu ilə (kiminsə arvadı, kiminsə qızı, kimsə anası, kiminsə bacısı və s.) səciyyələndirirdilər. İlk dəfə olaraq qadınların azadlığının tələb olunması, qadınların kişilərlə bərabər hüquqlarının olması feminist alimlər tərəfindən irəli sürülmüşdür. Gender, feminizm və cins anlayışlarını fərqləndirmək lazımdır. Belə ki, feminizm dedikdə, cinslərin hüquq bərabərliyi təsəvvürlərinə əsaslanan qadınların hüquqlarının müdafiəsi uğrunda mübarizə aparan bir hərəkat nəzərdə tutulur.

Gender dedikdə, biz yaşadığımız cəmiyyətdə qadın və kişi olmanın qəbul olunmuş davranış və psixoloji, cins dedikdə isə kişilik və qadınlığın bioloji aspektlərini nəzərdə tuturuq. Bəşəriyyət mövcud olduğu vaxtdan həmişə gender bərabərliyi məsələsilə bağlı mübahisələr gedir və hər bir dövrdə özünəməxsus şəkildə təzahür edir.

Qadınların hüquqlarının pozulması ilə yanaşı hazırkı dövrdə kişilərin hüquqlarının pozulması faktını da qeyd edə bilərik. Min illərdir ki, cəmiyyət və təbiət bu gender savaşından yaxa qurtara bilmir. Bu gün istər demokratik ölkələrdə, istərsə də demokratiyaya keçid dövrünü yaşayan ölkələrdə bu problem yaşanır. Hər bir ölkə gender bərabərliyi sahəsində özünəməxsus siyasət həyata keçirir. Azərbaycan psixologiyasında gender problemi XX əsrin 60-70-ci illərində cinsi fərqlərin formalaşması istiqamətində öyrənilməyə başlanılmışdır.

Qeyd etmək lazımdır ki, cinsi mənsubiyyətlə bağlı fərqli psixoloji xüsusiyyətlərin formalaşması, cinsi sosializasiya isə ilk öncə ailədən başlayır. Cəmiyyətdə gender təsəvvürlərinin öyrənilməsi, onu şərtləndirən amillərin aşkar olunması Azərbaycan ailəsinin dinamik inkişafını təmin etmək baxı-

mından ciddi əhəmiyyət kəsb edir. Digər tərəfdən müasir dövrdə dünya ölkələri və xalqları ilə olan əlaqələr istər istəməz ailə dəyərlərinə, eləcə də gender təsəvvürlərinə öz təsirini göstərir. Gender bərabərliyi məsələsini təhlil etdikdə, hökmən xalqın, millətin mədəniyyəti, ilk növbədə onun mənsub olduğu din, etnik mənsubliyyət kimi amillər diqqət mərkəzində saxlanılmalıdır. Bu baxımdan etnik və dini mənsubiyyətlə bağlı elə məsələlər olur ki, orada gender bərabərliyi etnik və dini qaydalara zidd gəlir. Belə problemlərin araşdırılması bir tərəfdən gender probleminin həlli istiqamətində tövsiyələr verməyə, digər tərəfdən isə bu probleminin həllinin psixoloji aspektlərini müəyyənləşdirməyə imkan verir. Bu baxımdan "Müasir azərbaycan ailəsində gender probleminin sosial-psixoloji aspektləri" mövzusunu tədqiqat obyekti kimi seçilməsini məqsədəuyğun hesab etmişik.

**Mövzunun işlənmə səviyyəsi.** Müasir Azərbaycan ailəsində gender probleminin sosial-psixoloji xüsusiyyətlərinin tədqiqinə nəzər saldıqda görürük ki, bu sahədə istər ümumi psixologiyada, istər sosial psixologiyada bir sıra tədqiqatlar aparılmışdır. Bundan əlavə gender problemi, kütləvi informasiya vasitələrinin gender maarifləndirilməsində rolu Marie Gillespie, Marilyn Johns, İ.S.Kon, Karen Xorni, T.Bendas, Hasan Çalışkan və digər sosioloq və psixoloqların tədqiqatlarında öz əksini tapmışdır.

Azərbaycanda da gender problemi müxtəlif istiqamətlərdə tədqiq olunmuşdur. Belə ki, R.F.İbrahimbəyova, K.C.Ağayeva, R.S.Mirzəyeva, Ə.S.Abasov, A.V.Axundov, Ü.A.Əfəndiyeva, V.Q.Nağıyeva, A.Q.Kamalova, E.Ə.Mollayeva gender probleminin tarixi kökləri, Azərbaycan ailələrində gender probleminin yaranmasına səbəb olan amillər, Azərbaycanda gender siyasəti, ənənəvi qadın rolu ilə bağlı məhdudiyyətlər, kişi gender rolu və ona daxil olan normaları, gender tarixi və nəzəriyyələrini, cəmiyyətdə cinslərin sosial rolları və qarşılıqlı münasibətləri problemlərini tədqiq etmişlər. Ə.Ə.Əlizadənin "Ailə həyatının etika və psixologiyası", "Uşaqlarda və yeniyetmələrdə cinsi tərbiyə", "Qadın psixologiyası" adlı kitablarında Azərbaycan ailəsi, uşaqlarda cinsi tərbiyənin düzgün aparılmasının cins-rol bölgüsünə, eyni zamanda gender probleminə təsiri haqqında çox sanballı tədqiqatlar aparılmışdır. B.H.Əliyev, R.H.Qədirova, K.R.Əliyeva, S.İ.Seyidov, Ə.S.Bayramov, R.İ.Əliyev və digər psixoloqların tədqiqatlarına nəzər yetirsək, onların bu və ya digər dərəcədə ailənin idarə olunması, uşaqların tərbiyəsində ailənin rolu və tərbiyənin gender probleminə təsiri və s. məsələlərə toxunduqlarını görərik.

**Tədqiqatın obyekti** gender probleminin psixoloji aspektləridir.

**Tədqiqatın predmeti** müasir Azərbaycan ailələrində gender problemlərinin təzahürünün sosial-psixoloji xüsusiyyətləridir.

**Tədqiqatın məqsədi** Azərbaycan ailələrində gender probleminin yaranmasının sosial-psixoloji xüsusiyyətləri, eləcə də bu problemin yaranmasına səbəb olan amillər, onların aradan qaldırılması yollarının müəyyənləşdirilməsindən ibarətdir.

**Tədqiqatın fərziyyəsi.** Qloballaşan dünyanın beynəlmiləl dəyərləri müasir Azərbaycan ailəsinə onun mövcud sosial-psixoloji mühitindən asılı olaraq təsir göstərir.

Əsas fərziyyəyə uyğun olaraq əlavə iki fərziyyə də irəli sürülmüşdür:

1. Ailələrin yaşayış yeri (şəhərlərdə və kəndlərdə yaşaması), əmək fəaliyyəti ilə məşğulluq dərəcəsi, eləcə də təhsil səviyyəsi gender probleminin müxəlif səviyyədə təzahürünə təsir göstərir.

2. Milli identiklik səviyyəsi yüksək olan ailələrə yad dəyərlər daha az təsir göstərir.

**Tədqiqatın vəzifələri.** Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

- Gender problemi və onun Azərbaycan ailələrində özünü göstərməsi ilə bağlı psixoloji, sosial-psixoloji və digər elmi ədəbiyyatları araşdırılması, tədqiqata kömək edəcək fikir və mülahizələrin təhlil edilməsi;
- Gender probleminin yaranma tarixi və səbəblərini, onun tədqiqi istiqamətlərinin müəyyənləşdirilməsi;
- Azərbaycan ailələrinə xas etnopsixoloji və arxetipik xüsusiyyətlərin, eyni zamanda ailədə cinsi sosializasiya məsələlərinin gender probleminə təsirinin öyrənilməsi;
- Tədqiqatın həyata keçirilməsini təmin edən adekvat metodların seçilməsi və onların əsaslandırılması.
- Gender probleminin həlli ilə bağlı tövsiyə və təkliflərin irəli sürülməsi.

**Tədqiqatın metodoloji əsasları və metodları.** Tədqiqatın metodoloji əsasını A.Bandura və K.Levinin müvafiq nəzəriyyələri, Ə.Ə.Əlizadənin ailə və gender psixologiyası ilə bağlı apardığı nəzəri tədqiqatlar, eləcə də M.Midin mədəniyyət konsepsiyası təşkil edir. Tədqiqatda nəzəri təhlil, eksperiment, müşahidə, müsahibə, anket sorğusu, söhbət, testləşdirmə kimi metodlardan istifadə edilmişdir. Azərbaycan ailəsi üçün səciyyəvi olan dəyərlərin müəyyənləşdirilməsi üçün Amerikan psixoloqu M.Rokiçin "İnstrumental və terminal dəyərlər" irerarxiyası metodikasının modifikasiya olunmuş variantından istifadə olunmuşdur. Tədqiqatda müxtəlif yaş dövrlərində və müxtəlif təhsil səviyyəsinə malik 19-56 yaş civarında olan 210 nəfər qadın iştrak etmişdir. Tədqiqatda bir sıra metodlarla yanaşı SPSS-17 proqramından istifadə olunmuş və riyazi-statistik hesablamalar aparılmışdır.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işində müasir Azərbaycan ailəsində gender problemi əsasən ailədə demoqrafik amillərin təsirindən və ailənin tipindən asılı olaraq özünü göstərməsi aşkar olunmuşdur. Müəyyən edilmişdir ki, şəhərdə yaşayan qadınların dəyərləri ilə rayonda yaşayan qadınların dəyərlər sistemindəki fərqlər yalnız bir neçə dəyərdə özünü göstərir ki, bu da onların yaşadığı şəraitin tələblərindən irəli gəlir. Belə ki, rayonda yaşayan qadınların dəyərlərində daha çox təhsillə və özüdərklə bağlı dəyərlər üstünlük təşkil edirsə, şəhərdə yaşayan qadınların dəyərlər sistemində sosial münasibətlərin qurulması, sosial təqdirolunma daha çox üstünlük təşkil edir. Rayonda yaşayan qadınların dəyərlər sistemində mövcud ierarxiya şəhərdə yaşayan qadınların dəyərlərinin ierarxiyasından ciddi şəkildə fərqlənmir. Bununla yanaşı bu sahədə aparılmış tədqiqatlar sistemləşdirilmiş, gender probleminin milli-etnik cəhətləri aşkar olunmuşdur. Həmçinin tədqiqatda milli-mənəvi dəyərlər və qloballaşmanın yeni dəyərləri arasındakı qarşılıqlı təsirin pozitiv və neqativ xüsusiyyətləri sosial-psixoloji baxımdan mənalandırılmışdır.

**Müdafiəyə təqdim olunan müddəalar:**

1. Qloballaşmanın yeni dəyərləri Azərbaycan ailəsinə təsir göstərməsinə baxmayaraq milli mənəvi dəyərlər və etnopsixoloji xüsusiyyətlər qorunub saxlanılır.
2. Ailənin yaşayış yerindən asılı olaraq (şəhərdə və rayonda yaşamasından) üstünlük verilən dəyərlərin ierarxiyasında fərqliliklər mövcuddur.
3. Gender problemi ailənin tipindən (mürəkkəb, nuklear, natamam) asılı olaraq özünü göstərən sosial-psixoloji problemdir.
4. Yeni nəsillə əvvəlki nəsillərin hər birinin stereotip və yönümləri müxtəlif olduğundan gender rollarında da fərqliliklər özünü göstərir.Həm kişinin, həm qadının təhsilli olması ailədə cins rol bölgüsünə təsir göstərərək gender probleminin daha az özünü büruzə verməsinə səbəb olur.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Dissertasiya işində Azərbaycan və xarici ölkə psixoloqlarının tədqiqatları öyrənilmiş, təhlil olunmuş və Azərbaycan ailəsinin özünəməxsus xüsusiyyətləri, gender probleminin sosial-psixoloji əsasları göstərilməklə sosial psixologiya və ailə psixologiyasını yeni elmi biliklərlə zənginləşdirir. Tədqiqatda əldə olunmuş nəticə və ümumiləşdirmələr gender probleminin Azərbaycan ailələrində sosial-psixoloji xüsusiyyətləri haqqında bilik və təsəvvürləri genişləndirir, bu sahədə tədqiqatları zənginləşdirir, gələcəkdə problemin tədqiqi istiqamətində araşdırmalar aparılmasına müəyyən imkanlar yaradır.

**Tədqiqatın praktik əhəmiyyəti.** Tədqiqat işindən əldə edilmiş nəticələrdən ümumi və sosial psixologiya kurslarının məzmununun təkmilləşdi-

rilməsində, seminar və xüsusi kurslarda tələbə və gənclərlə sosial-psixoloji təlimlərin keçirilməsində istifadə oluna bilər. Bundan başqa, dissertasiya dərs vəsaitlərinin, metodik vəsaitlərin, proqramların, mühazirə mətnlərinin hazırlanmasında, ailə psixologiyası ilə əlaqədar olan fənlərin tədris olunmasında, əhəmiyyətli ola bilər.

**Tədqiqatın approbasiyası.** Tədqiqat işi Azərbaycan Dillər Universitetinin Psixologiya kafedrasında yerinə yetirilmişdir. Tədqiqatdan alınan nəticələr Azərbaycan Dillər Universitetinin Psixologiya kafedrasının elmi seminarlarında, respublika, eləcə də beynəlxalq səviyyəli elmi-praktik konfransların materiallarında tezis və məqalələr şəklində çap olunmuş və bu yolla aprobasiyadan keçirilmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, üç fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti, predmeti, məqsədi və vəzifələri, fərziyyəsi, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə təqdim olunan əsas müddəalar şərh olunur.

Dissertasiyanın **"Psixologiyada gender probleminin tarixi təhlili"** adlanan I fəsli üç yarımfəsildən ibarətdir.

Dissertasiyanın **"Gender probleminin yaranma tarixi"** adlanan I fəslinin I yarımfəslində gender və cins anlayışlarına aydınlıq gətirilmiş, antik dövrdən başlayaraq müasir dövrə qədər gender probleminin yaranması tarixi araşdırılmışdır. Burada qeyd olunur ki, XIX əsrin sonu XX əsrin əvvəllərində gender problemi sosiologiya və psixologiya elmlərinin tərkibində bu və ya digər dərəcədə öyrənilməyə başlasa da, əsasən ikinci dünya müharibəsindən sonra sosial psixologiyada daha çox tədqiq olunmuşdur. Bir neçə il bundan əvvəl gender haqqında təsəvvürlərimiz belə olmamışsa, müasir dövrümüzdə gender problemi elmi-tədqiqat işlərində, tədris sistemində, dövlət siyasətində, qanunvericilikdə, hökümət və qeyri-hökümət təşkilatlarının fəaliyyətində mühüm yer tutan və özünü təsdiqləmiş bir problem kimi diqqəti cəlb edir. Gender sözü ilk dəfə XX əsrin 70-ci illərində Böyük Britaniyalı sosioloq, feminist Ann Oukli tərəfindən qadın və kişilərin bioloji və sosial xarakterlərini təsvir etmək üçün istifadə edilmişdir. Gender məsələsi ilə bağlı fikirlərə hələ antik yunan filosoflarının da əsərlərində rast gəlmək olur. Yunan fəlsəfəsinin dahisi Platonun "Dövlət" əsərində gender tarixi üçün zəngin fikir və ideya vardır. Əsərin "İdeal dövlətdə qadınların rolu" adlı bəndində göstərilir: "qadınlara kişilərlə bir-

likdə eyni bir işi görməyi nəzərdə tutur, qadınlara da musiqi və gimnastik məşğələlər keçməli, bu sənətlərin hər ikisini mənimsəməlidirlər”. XVI əsrin əvvəlində alman alimi Korneli Aqrippa “Qadın cinsinin alicənablığı və kişi üzərində üstünlüyünə dair Deklamasiya” əsərində qadın cinsinin təbii bacarığının kişi cinsindən geri qalmadığını əsaslandırırdı. Fransız feminist filosofu Fransua Pulen de Lya Bar “Cinslərin bərabərliyi” adlı essesində isə yazırdı ki, qadını kişinin gücünə tabe olmasının səbəbi təbii qanunlar deyil, qadının özünün kişiyə tabe olmasıdır.

Nəzərə almaq lazımdır ki, feminizmlə bağlı araşdırma aparmadan gender məsələsinin tarixini və mahiyyətini anlamaq çətindir. Fransa burjua inqilabının əsas prinsipləri olan azadlıq və bərabərlik ideyası feminizmin təşəkkülünə səbəb olmuşdur. İlk dəfə olaraq qadınların azadlığının tələb olunması, qadınların kişilərlə bərabər hüquqlarının olması feminist alimlər tərəfindən irəli sürülmüşdür. Onu da qeyd edək ki, genderlə feminizmi eyniləşdirmək olmaz. Belə ki, feminizm dedikdə, cinslərin hüquq bərabərliyi təsəvvürlərinə əsaslanan qadınların hüquqlarının müdafiəsi uğrunda mübarizə aparan bir hərəkat nəzərdə tutulur. Gender problemi isə qadınlarla kişilərin bərabərliyini özündə ehtiva edən problem olaraq cəmiyyətin əsas müzakirə mövzularından birinə çevrilmişdir.

Dissertasiyanın **“Gender probleminin psixologiyada tədqiqi istiqamətləri (Qadın psixoloqların rolu)”** adlanan I fəslinin II yarımfəslində qeyd olunur ki, ictimai fikir tarixinin ilkin inkişaf mərhələlərindən başlayaraq qadın-kişi münasibətlərinə, cinslərin ailədə və cəmiyyətdə yeri məsələsinə və s. dair hər bir dövrün tələbatına uyğun müxtəlif baxışlar olmuşdur. Bu yarımfəsildə gender probleminin psixologiyada tədqiqi istiqamətləri araşdırılmış, xüsusilə qadın psixoloqların rolu öyrənilmiş, xarici ölkə psixoloqlarından Karen Horni, Luan Brayzendayn, Eleanor Makkobi, İnez Prosser və b. tədqiqatları təhlil edilmişdir. Azərbaycanda gender probleminin tədqiqi istiqamətində xüsusi rol oynayan qadın psixoloqlardan Cəmilə Təhmasib, Rəna İbrahimbəyova, Vəfa Nağıyeva, Afət Kamalovanın tədqiqatları və bu sahədə fəaliyyətləri araşdırılmışdır. Nəticə olaraq göstərilir ki, gender problemini tədqiq edən psixoloqlar tək qadınların deyil, eyni zamanda kişilərin də hüquqlarının pozulduğunu və gender probleminin həlli istiqamətində qadın tədqiqatları kişi tədqiqatlarının birgə aparılmalı olduğunu qeyd edirlər. Antik dövr mütəfəkkirlərindən tutmuş hazırki dövrə qədər də gender problemi və onun aradan qaldırılması mövzusunda müxtəlif fikirlər irəli sürülür. K.Xorni “psixoanalitik feminizm” anlayışını ilk işlədən alimdir. O, “kişiyə həsəd edən” qadın psixologiyası əvəzinə “qadına qibtə edən” kişi, qadının uşaq doğmasına “paxıllıq edən”

kişi psixikasını qoyur.

Azərbaycanda gender probleminin tədqiqi istiqamətində xüsusi rolu olan qadın psixoloqlardan Psixologiya elmləri namizədi Cəmilə Təhmasib qeyd edirdi ki, "1920-ci ilə qədər qadın ictimai həyatdan uzaqlaşdırılmış və yalnız ev işləri ilə məşğul ola bilərdi. Ata və qardaşın köləsi, ərinin isə şəxsi əşyası olan qadın övladlarını da bu ruhda tərbiyə edirdi. Belə bir qadında özünəinamsızlıq, qərarsızlıq, öz kölə hüquqları ilə razılaşma özünü göstərirdi". Bundan əlavə, gender probleminin tədqiqində əvəzsiz rola malik olan psixologiya elmləri namizədi R.İbrahimbəyova qeyd edir ki, "indiki dövrdə gender tədqiqatlarını feminist tədqiqatlardan fərqləndirmək lazımdır. Gender tədqiqatları dedikdə təkcə qadın deyil, kişi tədqiqatları da nəzərdə tutulur. Onlar təklikdə tədqiq edilməməlidir. Bu gün qadınlarla bərabər kişilərin də hüquqları pozulur. Gender tədqiqatları zamanı bu problemləri yaradan səbəblər araşdırılmalıdır.

Dissertasiyanın **"Gender probleminin sosial-psixoloji xüsusiyyətləri"** adlanan I fəslinin III yarımfəslində qeyd olunur ki, müasir dövrdə cəmiyyət həyatında qadının rolu günü-gündən artmaqdadır, qadınlar öz aktiv fəaliyyətləri ilə kişilərdən geri qalmırlar. Tarixən kişilərə nisbətən qadınların daha az hüquqları olub, onları ikinci, yəni yanlız ev işlərində ərlərinə, ailəsinə köməkçi rolunda görüblər. Zaman keçdikcə qadınlar cəmiyyətdə öz mövqe və hüquqlarının müdafiəsi uğrunda mübarizəyə başlayıblar. Qadınların öz hüquqlarını bilməsi və hüquqları uğrunda mübarizə aparması üçün, ilk növbədə onların təhsil alması, maarifləndirilməsi lazımdır. Doğrudan da, təhsil gender bərabərliyinə və qadınların imkanlarının genişləndirilməsinə nail olmağın mühüm və daha əhəmiyyətli vasitələrindən biridir. Bu yarımfəsildə gender bərabərliyi, gender stereotipləri, gender mədəniyyəti, gender sistemləri və gender assimmetriyası, Azərbaycan ailəsində gender sosiallaşması, ailənin tipindən asılı olaraq ailədaxili münasibətlər, oğlan, qız tərbiyəsinin xüsusiyyətləri təhlil edilmişdir. Cinslərin davranışındakı fərqlər onların fizioloji və bioloji xüsusiyyətlərindən asılı deyil, cəmiyyətdə kişi və qadın haqqında formalaşmış təsəvvürlər və stereotiplərlə müəyyənləşir.

Dissertasiyanın **"Müasir Azərbaycan ailəsinin xüsusiyyətləri"** adlanan II fəsli üç yarımfəsildən ibarətdir. II fəslin "Azərbaycan ailəsinin etnopsixoloji xüsusiyyətləri" adlanan I yarımfəslində qeyd edilir ki, xalqın etnik-psixoloji xüsusiyyətləri, arxetipləri gender məsələsinə, qadın-kişi münasibətlərinə və onların tənzimlənməsinə bu və ya digər dərəcədə öz təsirini göstərir. Azərbaycan ailəsinin təməl və sabitliyini təşkil edən etnopsixoloji və arxetipik xüsusiyyətlər xalqın milli mənlik şüurunun formalaşmasına

təsir göstərir. Hər bir soyun, xalqın özünə xas etnopsixoloji xüsusiyyətləri və adət-ənənəsi var. Bütün bunlar ailənin qurulmasına və ailə kimi formalaşmasına mühüm təsir göstərir. Azərbaycan ailələrinin milli mentalitetində üç istiqamətin sovet meyli, qərb və şərq meyllərinin özünü göstərməsinə baxmayaraq, xalqın etnopsixoloji və arxetipik xüsusiyyətləri ailənin təməlini, davamlılığını və sabitliyini qoruyub saxlayır. Yuxarıda qeyd etdiyimiz etnopsixoloji və arxetipik xüsusiyyətlər kimi ailənin mənəvi dəyərləri olmasaydı qloballaşma şəraitində ailəni qorumaq çox çətin olardı.

Dissertasiyanın II fəslinin "**Azərbaycan ailəsində cinsi sosializasiya məsələləri"** adlanan II yarımfəslində Azərbaycan ailəsində cinsi sosializasiyanın xüsusiyyətləri araşdırılmış, cəmiyyətdə formalaşmış stereotiplər, oğlan və qızların cinsi yetişkənlik dövrünü özünəməxsus şəkildə keçirməsi, hər yaş dövrünün dəyişikliklərinin onların psixi və emosional inkişafına təsiri məsələləri öz əksini tapmışdır.

Qeyd etmək lazımdır ki, cinsi müxtəliflik bioloji fakt və qanunauyğunluqdursa, cinsi sosializasiya sosial, etnik, milli və etik prosesdir. İnsanlar cinsi fərqlərlə doğulduğu üçün onların sosializasiyası da fərqli istiqamət və tələblər üzrə baş verir. Cinsi sosializasiya əsasən sosial və etnopsixoloji faktor və mühitin təsiri şəraitində baş verir.Rusiyalı tədqiqatçı İ.Kon "Uşaq və cəmiyyət" adlı əsərində yazır ki, cinsi sosializasiya fərdin anatomik planda öz cinsinə uyğun olaraq fiziki, emosional və koqnitiv xüsusiyyətləri mənimsəməsi prosesidir. Cinsi sosializasiya bir proses kimi cinsi identikliyin formalaşması ilə nəticələnir. Cinsi-rol sosializasiya insanın bütün həyatı boyu davam edən prosesdir. O, dəyişən şəraiti və yeni təcrübəni əks etdirir. ailənin tipləri ənənəvi və nuklear, tam və natamam olması da ailədə cinsi sosializasiya prosesinə təsir göstərir.

Dissertasiyanın II fəslin **"Kütləvi informasiya vasitələri və gender problemi"** adlanan III yarımfəsli gender probleminin KİV-də təqdim olunması məsələsinə həsr olunmuşdur. Bu yarımfəsildə qeyd olunur ki, insan anadan olduğu gündən gender rolu formalaşmağa başlayır. Bu istiqamətdə "Hakimiyyətin dördüncü qolu adlandırılan" Kütləvi informasiya vasitələrinin də üzərinə müəyyən vəzifələr düşür. İnsanlar KİV vasitəsilə dünyada baş verən hadisələr haqqında qısa bir zamanda məlumat alırlar. Biz kütləvi informasiya vasitələrinin vasitəsilə öz beynimizdə kişi və qadın stereotiplərini formalaşdırırıq.

KİV gender rollarına əhəmiyyətli dərəcədə təsir göstərir. II dünya müharibəsi dövründə çox məşhur bir reklam insanların diqqətini özünə cəlb edirdi. Müharibəyə gedən kişilərin iş yerlərini əvəz etməkdən ötrü həmişə evdə oturub ailəsinin qayğısına qalmağı qadınlara təlqin edən dövlət bu

dəfə onları kişi işlərinə ruhlandırmaq məqsədi ilə reklamlardan istifadə edirdi, əks halda zavod və fabriklərdə iş dayanmalı idi. İnformasiya vasitələrində çox populyar bir şəkil öz əksini tapırdı: Başında qırmızı ləçək və əzələli qollarını çırmalamış qadın təsvir edilirdi və aşağıdakı sözlər yazılırdı: "Biz bunu bacarırıq". "Qadınlar, vətənin sizə ehtiyacı var", "Qələbə sizin əlinizdədir" kimi devizlərlə dövlət qadınları ruhlandırırdı və qadınlar ərlərinin, atalarının, qardaşlarının iş yerlərində bacardıqları kimi fəaliyyət göstərirdilər. Bu reklam vasitəsilə KİV-in insanların beyninə necə təsir etdiyini görmək olar.

Dissertasiyanın **"Müasir Azərbvaycan ailəsində gender probleminin sosial-psixoloji tədqiqi"** adlanan III fəsli iki yarımfəsildən ibarətdir və tədqiqatın təşkili, keçirilməsi və nəticələrin işlənməsinə həsr olunmuşdur.

Dissertasiyanın III fəslinin **"Tədqiqatın təşkili və keçirilməsi"** adlanan I yarımfəslində tədqiqatda istifadə olunan metodikalar öz əksini tapmışdır. M.Rokiçin "Sərvət dəyərləri" metodikasına əsasən respondentlərə əlifba sırasında dəyərlərin siyahısından ibarət (hər birində 18 dəyər olmaqla) kartoçkalar verilir. Kartoçkalar özünün əhəmiyyətlilik dərəcəsinə görə ranqlaşdırılır. Əvvəl terminal dəyərlər, sonra isə instrumental dəyərlər qruplaşdırılır. Bundan əlavə, gender probleminin yaranmasına təsir göstərən amilləri müəyyən etmək üçün beş sualdan ibarət anket sorğusu aparılmışdır. Tədqiqatda bir neçə meyar əsas götürülmüşdür:demoqrafik meyar, təhsil, ailə tipi. Tədqiqatda müxtəlif yaş dövrlərində və müxtəlif təhsil səviyyəsinə malik 19-56 yaş civarında olan 210 nəfər qadın iştrak etmişdir. Tədqiqatda bir sıra metodlarla yanaşı SPSS-17 proqramından istifadə olunmuş və riyazi-statistik hesablamalar aparılmışdır.

Dissertasiyanın III fəslinin **"Nəticələrin işlənməsi"** adlanan II yarımfəslində ilkin olaraq M.Rokiçin Sərvət dəyərləri metodikasından istifadə etməklə demoqrafik göstəricilər üzrə nəticələrin ümumləşdirilməsinə çalışılmışdır.

Terminal dəyərlərin ierarxiyası (şəhər və kəndin müqayisəsi əsasında)

Cədvə 3.1.

| Sıra nömrəsi | Şəhər | Rayon |
|---|---|---|
| 1. | Sağlamlıq | Sağlamlıq |
| 2. | Sevgi | Sevgi |
| 3. | Yaxşı və sadiq dostların mövcudluğu | Maddi təmin olunmuş həyat |

| | | |
|---|---|---|
| 4. | Özünəinam | Həyat müdrikliyi |
| 5. | Həyat müdrikliyi | Yaxşı və sadiq dostların mövcudluğu |
| 6. | Dərketmə | Xoşbəxt ailə həyatı |
| 7. | Fəal işgüzar həyat | Özünəinam |
| 8. | Maddi təmin olunmuş həyat | Fəal işgüzar həyat |
| 9. | İctimai nüfuz | Dərketmə |
| 10 | Maraqli iş | İctimai nüfuz |
| 11. | Bərabərlik | Bərabərlik |
| 12. | Xoşbəxt ailə həyatı | Maraqli iş |
| 13. | Məmnunluq-həzz | Məmnunluq-həzz |
| 14. | Ölkədə, cəmiyyətdə ümumi yaxşı vəziyyət | Yaradıcılıq |
| 15. | Yaradıcılıq | Ölkədə, cəmiyyətdə ümumi yaxşı vəziyyət |
| 16. | Mühakimələrdə, qiymətləndirmədə müstəqillik kimi sərbəstlik | İncəsənət və təbiətin gözəlliyi |
| 17. | Xalqlar arasındakı sülhün saxlanması | Mühakimələrdə, qiymətləndirmədə müstəqillik kimi sərbəstlik |
| 18. | İncəsənət və təbiətin gözəlliyi | Xalqlar arasındakı sülhün saxlanması |

Cədvəl 3.1-dən göründüyü kimi demoqrafik göstəricilərə görə, yəni, şəhərdə və rayonda yaşayan qadınların terminal dəyərlərinin ierarxiyasında ciddi fərqlər özünü göstərməkdədir. Doğrudur, bir sıra dəyərlər ierarxiyada üst-üstə düşsədə də, bəzilərində ciddi fərqlər özünü göstərməkdədir. Məsələn, şəhər qadınlarında yaxşı və sadiq dostların mövcudluyğu 3-cü yeri tutsa da, rayon qadınlarında 3-cü yeri maddi təmin olunmuş həyat tutur. Yaxşı və sadiq dostların mövcudluğu onlarda 5-ci yerdə durur. Cədvəl 3.1-dən göründüyü kimi hər iki parametr üzrə terminal dəyərlərdə birinci yeri sağlamlıq tutur. Respondentlərin 65,3 % üçün psixi və fiziki sağlamlıq əsasdır.

İkinci yeri 17,7 % respondentler üçün sevgi münasibətləri tutur. Bu da görünür ailə münasibətlərinin qurulması üçün vacib şərtlərdən biri olduğundan qadınlar bu faktı ilkin yerlərdən birində görürlər. Həm də nəzərə almaq

lazımdır ki, rəyi soruşulanlar qadınlar olduğu üçün bu amil məntiqə uyğundur.

Terminal dəyərlər üzrə ailə xoşbəxtliyi rayon qadınları üçün altıncı yerdə, şəhər qadınları üçün isə on ikinci yerdədir. Təbii ki, rayon həyatında ailəyə bağlılıq, eləcə də etnik stereotiplər üstünlük təşkil etdiyindən bu dəyər şəhərlilərin dəyərlərindən fərqlənir.




Şək. 3.1. Şəhərdə və rayonda yaşayan qadınların terminal dəyərlərinin ierarxiyası

Şəkil 3.1-dən göründüyü kimi istər şəhərli istərsədə rayonda yaşayan qadınların əksər faizi maddi təmin olunmuş həyata və maraqlı iş kimi dəyərlərə üstünlük verirlər. Sağlamlıq, sevgi, yaxşı və sadiq dostların mövcudluğu, özünəinam kimi dəyərlər ilkin yerləri tutsa da onların faiz göstəriciləri aşağıdır. (20-%-dən 60 %-qədər). Əksinə yaradıcılıq, mühakimələrdə, qiymətləndirmədə müstəqillik, incəsənət və təbiət gözəlliyi axırıncı yerləri bölüşsə də onlarda faiz nisbəti yüksəkdir (80%-dən 100 %-ə qədər.)

Şəkil 3.1-dən və cədvəl 3.1-dən göründüyü kimi şəhərdə və rayonda yaşayan qadınlar arasında terminal dəyərlərin ierarxiyasında ciddi fərqlər özünü göstərir. İndi isə instrumental dəyərlərin ierarxiyasına nəzər salaq. Cədvəl 3.2-dən göründüyü kimi demoqrafik göstəricilərə görə, yəni, şəhərdə və rayonda yaşayan qadınların instrumental dəyərlərinin ierarxiyasında müəyyən fərqlər özünü göstərir. Hətta bir sıra dəyərlər ierarxiyada üst-üstə düşür. Məsələn, şəhərdə və rayonda yaşayan qadınların dəyərlərinin ierarxiyasında tərbiyəlilik 1-ci yerdədir və hər ikisində üst-üstə düşür. Qadınlar üçün vacib olan səliqəlilik dəyəri şəhər qadınlarında 4-cü yerdə, rayonda yaşayan qadınlarda 2-ci yerdə dayanır.

Şəhərdə və rayonda yaşayan qadınlarda instrumental dəyərlərin ierarxiyası

Cədvəl 3.2.

| Sıra nömrəsi | Şəhərdə yaşayan qadınların dəyərlərinin ierarxiyası | Rayonda yaşayan qadınların dəyərlərinin ierarxiyası |
|---|---|---|
| 1. | Tərbiyəlilik | Tərbiyəlilik |
| 2. | Məsuliyyətlilik | Səliqəlilik |
| 3. | Düzlük | Məsuliyyətlilik |
| 4. | Səliqəlilik | Düzlük |
| 5. | Savadlılıq | Savadlılıq |
| 6. | Səbrlilik | Səbrlilik |
| 7. | Müstəqillik | Həyatsevərlik |
| 8. | Həyatsevərlik | Həssaslıq |
| 9. | Möhkəm iradə | Özünənəzarət |
| 10. | İcraçılıq | İcraçılıq |
| 11. | Özünənəzarət | Baxışların genişliyi |
| 12. | Rasionalizm | Müstəqillik |
| 13. | Baxışların genişliyi | Rasionalizm |
| 14. | Həssaslıq | Möhkəm iradə |
| 15. | Öz fikir və baxışlarını təkid etmək bacarığı | Öz fikir və baxışlarını təkid etmək bacarığı |
| 16. | Yüksək tələbatlar | İşlərdə effektivlik |
| 17. | İşlərdə effektivlik | Yüksək tələbatlar |
| 18. | Özündəki və başqalarındakı nöqsanlara səbirsizlik | Özündəki və başqalarındakı nöqsanlara səbirsizlik |

Əslində fikrimizcə bu dəyər hər ikisində ilkin yerlərdən birini tutmalı idi. Deməк olar ki, birinci beş yeri məşğul edən dəyərlər həm şəhərdə yaşayan, həm də rayonda yaşayan qadınlar üçün eyniyyət təşkil edir. Bəzi istisnalar olsa da, birinci beşliyi tərbiyəlilik, səliqəlilik, məsuliyyətlilik, düzlük və savadlılıq tutur.

İnstrumental dəyərlər ierarxiyasında şəhərdə və rayonda yaşayan qadınların əhəmiyyətli hesab etdikləri dəyərlər aşağıdakılardır:

- tərbiyəlilik - yaxşı maneralar - bu iştrakçıların 20%-i üçün əhəmiy-

yətli olmuşdur.

- məsuliyyətlilik və səliqəlilik - bu iştrakçıların 16 %-i üçün əhəmiyyətli olmuşdur.

Üçüncü yeri məsuliyyətlilik və düzlük kimi dəyərlər tutur. Rəyi soruşulanların 12 %-i üçün bu dəyərlər əhəmiyyətli olmuşdur.

Dördüncü və beşinci yerdə səliqəlilik, savadlılıq və düzlük kimi dəyərlər yer almışdır. İştirakçıların 8%-i üçün bu dəyərlər əhəmiyyətli olmuşdur.

Bununla yanaşı şəhərdə və rayonda yaşayan qadınları instrumental dəyərlərin ierarxiyasında dominantlıq təşkil edən dəyərlərin faiz münasibətlərinin araşdırmaq üçün diaqramda da həmin dəyərlərin ierarxiyasını verməyi məqsədəuyğun hesab etdik.




Şək. 3.2. Şəhərdə və rayonda yaşayan qadınların instrumental dəyərlərinin ierarxiyası.

Şəkil 3.2-dən göründüyü kimi istər şəhərli, istərsədə rayonda yaşayan qadınların əksər faizi müstəqillik və möhkəm iradə kimi dəyərlərə üstünlük verirlər. Tərbiyəlilik, məsuliyyətlilik, düzlük, səliqəlilik və savadlılıq kimi dəyərlər ilkin yerləri tutsa da onların faiz göstəriciləri bir o qədər yüksək deyil (42-%-dən 75 % -qədər). Baxışların genişliyi, həssaslıq, möhkəm iradə, rasionalizm, öz fikir və baxışlarını təkid etmək bacarığı, işlərdə effektivlik, özündəki və başqalarındakı nöqsanlara səbirsizlik kimi dəyərlər istər şəhərdə yaşayan, istərsə də rayonda yaşayan qadınlar üçün görünür elə də əhəmiyyət daşımır. (80%-dən 100 %-ə qədər) respondentler bu dəyərlərə əhəmiyyət vermirlər.

Tədqiqatdan alınmış məlumatları ümumləşdirsək belə bir qənaətə gələ

bilərik ki, istər şəhərdə, istərsə də rayonda yaşayan qadınlarda instrumental dəyərlərdən asılılıq özünü göstərir. Bu dəyərlərə ailə həyatına bağlılıq, savadlılıq, səliqəlilik, düzlük və s. aid etmək olar. Terminal dəyərlərdən isə sağlamlıq, maddi təmin olunmuş həyat daha çox əhəmiyyətlidir və bu dəyərlər arasında pozitiv asılılıq var. Bununla yanaşı özünəinam və maraqlı iş də əhəmiyyətlidir. Bu onu göstərir ki, qadınlar fəal ünsiyyətə, sosial əlaqələrə daha çox can atmaqdadırlar. Ancaq biz həm də yaş xüsusiyyətlərinin də qadınların dəyərlər sisteminə təsirini görürük. Bu daha çox terminal dəyərlərdə özünü göstərir. Nəzərə almaq lazımdır ki, dəyərlərin belə ierarxiyasına həm gender xüsusiyyətləri, həm də yaş xüsusiyyətləri ciddi təsir göstərir. Yaş artdıqca dəyərlərdə yeniləşmələr özünü göstərir.

Bütün bunlarla yanaşı biz həm instrumental, həm də terminal dəyərlərin müqayisəli təhlilini aparmağı məqsədəuyğun hesab etdik.




Şək.3.3. Şəhərdə yaşayan qadınların instrumental və terminal dəyərlərinin ierarxiyası

Şəkil 3.3-dən göründüyü kimi şəhərdə yaşayan qadınların instrumental və terminal dəyərlərinin ierarxiyasında instrumental dəyərlər ilkin yerləri tutur. Belə ki, tərbiyəlilik, düzlük, savadlılıq, kimi instrumental dəyərlər 1-ci, 2-ci və 3-cü yerləri tutur. 4-cü yerdən başlayaraq terminal dəyərlərin ierarxiyası başlanır. Belə ki, 4-cü yerdə yaxşı və sadiq dostların mövcudluğu dayanır. Fikrimizcə, qadınların dəyərlər sistemində bir ziddiyyət müşahidə olunur. Bu ondan ibarətdir ki, əslində terminal dəyərlər ilkin yerləri tutmalıdır. Ona görə ki, terminal dəyərlər bilavasitə məqsədlə əlaqədardır.

Yəni, terminal dəyərlər-insanın fərdi mövcudluğunun hansısa son məqsədi haqqında təsəvvürləri və ona yetişmək cəhdini əhatə edən dəyərlərdir. Görünür şəhərdə yaşayan rəyi soruşulan qadınların dəyərləri onların istəklərini ifadə edir. Əgər ilkin olaraq məqsəd olmazsa ona doğru cəhddən danışmaq yersizdir. Terminal dəyərlərin ierarxiyasından çıxış edib deyə bilərik ki, onların “real Məni” ilə “ideal Mən”i arasında disharmoniya müşahidə olunur.




Şək.3.4. Rayonda yaşayan qadınların instrumental və terminal dəyərlərinin ierarxiyası

Şəkil 3.4-dən göründüyü kimi rayonda yaşayan qadınların instrumental və terminal dəyərlərinin ierarxiyasında instrumental dəyərlər ilkin yerləri tutur. Belə ki, tərbiyəlilik, sevgi, düzlük kimi instrumental dəyərlər 1-ci, 2-ci və 3-cü yerləri tutur. 4-cü yerdən başlayaraq terminal dəyərlərin ierarxiyası başlanır. Şəhərdə yaşayan qadınların dəyərləri ilə rayonda yaşayan qadınların dəyərlər sistemindəki fərqlər yalnız bir neçə dəyərdə özünü göstərir ki, bu da onların yaşadığı şəraitin tələblərindən irəli gəlir. Belə ki, rayonda yaşayan qadınların dəyərlərində daha çox təhsillə və özüdərklə bağlı dəyərlər üstünlük təşkil edirsə, şəhərdə yaşayan qadınların dəyərlər sistemində sosial münasibətlərin qurulması, sosial təqdirolunma daha çox üstünlük təşkil edir.

Şəhərdə yaşayan qadınların terminal və instrumental dəyərləri arasında korrelyasiya

Cədvəl 3.3.

| Dəyərlər | Korrelyasiya | Fəal işgüzar həyat | Həyat Müdrikliyi | Sağlamlıq | Maraqlı iş | Maddi təmin olunma | Yaxşı və sadiq dostların mövcudluğu | Ölkədə cəmiyyətdə ümumi yaxşı vəziyyət |
|---|---|---|---|---|---|---|---|---|
| Həyatsevərlik | Sig.(2-tərəfli) | -0,015 | 0,195 | 0,285* | 0,182 | 0,094 | 0,131 | -0,12 |
| | Korrel-yasiya | 0,923 | 0,248 | 0,047 | 0,243 | 0,516 | 0,397 | 0,535 |
| İcraçılıq | Sig.(2-tərəfli) | 0,158 | 0,073 | -0,028 | 0,139 | 0,001 | -0,096 | 0,131 |
| | Korrel-yasiya | 0,295 | 0,655 | 0,846 | 0,357 | 0,481 | 0,52 | 0,474 |
| Müstəqillik | Sig.(2-tərəfli) | 0,362* | -0,156 | -0,032 | 0,378* | -0,033 | -0,499** | -0,045 |
| | Korrel-yasiya | 0,016 | 0,348 | 0,828 | 0,011 | 0,823 | 0,001 | 0,808 |
| Savadlılıq | Sig.(2-tərəfli) | -0,117 | 0,142 | 0,087 | 0,139 | -0,264 | 0,153 | 0,063 |
| | Korrel-yasiya | 0,429 | 0,376 | 0,534 | 0,345 | 0,054 | 0,299 | 0,728 |
| Məsuliyyətlilik | Sig.(2-tərəfli) | -0, 09 | 0,202 | -0, 089 | -0,062 | -0,053 | -0,076 | 0,439* |
| | Korrel-yasiya | 0,552 | 0,219 | 0,529 | 0,682 | 0,707 | 0,611 | 0,012 |
| Özündəki və başqalarındakı nöqsanlara səbirsizlik | Sig.(2-tərəfli) | 0,158 | -0,385* | -0,056 | -0,371* | 0,426* | -0,201 | -0,125 |
| | Korrel-yasiya | 0,388 | 0,03 | 0,75 | 0,037 | 0,012 | 0,269 | 0,517 |
| Möhkəm iradə | Sig.(2-tərəfli) | -0,287 | -0,026 | 0,063 | -0,233 | -0,197 | -0,016 | 0,052 |
| | Korrel-yasiya | 0,059 | 0,877 | 0,667 | 0,133 | 0,174 | 0,916 | 0,779 |
| Səbirlilik | Sig.(2-tərəfli) | -0,185 | -0,241 | 0,177 | -0,268 | 0,188 | 0,202 | -0,283 |
| | Korrel-yasiya | 0,223 | 0,139 | 0,214 | 0,072 | 0,186 | 0,178 | 0,117 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Düzlük | Sig.(2-tərəfli) | -0,3213* | -0,18 | 0,21 | -0,243 | 0,163 | 0,364 * | 0,078 |
| | Korrel-yasiya | 0,025 | 0,26 | 0,127 | 0,096 | 0,239 | 0,011 | 0,665 |
| İşlərdə effektivlik | Sig.(2-tərəfli) | 0,255 | 0,139 | -0,017 | -0,065 | -0,323* | -0,045 | 0,281 |
| | Korrel-yasiya | 0,091 | 0,393 | 0,903 | 0,673 | 0,021 | 0,776 | 0,113 |

Cədvəl 3.3-dən göründüyü kimi şəhərdə yaşayan qadınların terminal və instrumental dəyərləri arasında bir neçə dəyərə görə asılılıq müşahidə olunur. Həyat sevərlik və sağlamlıq arasında müsbət korrelyativ əlaqə vardır (0,285*, p=0,04 səviyyəsində). Müstəqilliklə maraqlı iş, və fəal işgüzar həyat dəyərləri arasında pozitiv korrelyativ əlaqə müşahidə olunur (0,362*, p=0,04 səviyyəsində və 0,378 *, p=0,04 səviyyəsində). Bununla yanaşı müstəqilliklə yaxşı və sadiq dostların mövcudluğu dəyəri arasında da əlaqə vardır (-0,499**, p=0,05 səviyyəsində), lakin bu əlaqə zəifdir, tendensiya xarakterlidir. Məsuliyyətliliklə ölkədə, cəmiyyətdə ümumi yaxşı vəziyyət arasında müsbət asılılıq vardır (0,439*, p=0,01 səviyyəsində). Özündəki və başqalarındakı nöqsanlara səbirsizliklə həyat müdrikliyi (-0,385* səviyyəsində), maraqlı iş (-0,371* səviyyəsində) zəif, maddi təmin olunma ilə isə müsbət korrelyasiya vardır (0,426* , p= 0,01 səviyyəsində).

Şəhərdə yaşayan qadınların terminal və instrumental dəyərləri arasında korrelyasiya

Cədvəl 3.4.

| Dəyərlər | Korrelyasiya | Dərketmə | Bərabərlik | Məmnunluq və həzz | Özünəinam | Mühakimələrdə qiymətləndirmələrdə müstəqillik kimi sərbəstlik | Xoşbəxt ailə həyatı |
|---|---|---|---|---|---|---|---|
| Həyatse-vərlik | Sig.(2-tərəfli) | -0,16 | 0,143 | -0,057 | 0,017 | -0,103 | 0,016 |
| | Korrelyasiya | 0,299 | 0,378 | 0,712 | 0,914 | 0,563 | 0,921 |
| İcraçılıq | Sig.(2-tərəfli) | 0,126 | -0,162 | -0,354* | -0,052 | -0,195 | -0,273 |
| | Korrelyasiya | 0,395 | 0,299 | 0,015 | 0,73 | 0,247 | 0,07 |
| Müstəqillik | Sig.(2-tərəfli) | -0,067 | 0,225 | 0,07 | 0,156 | -0,602** | -0,191 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | Korrelyasiya | 0,663 | 0,157 | 0,649 | 0,296 | 0,000 | 0,214 |
| Savadlılıq | Sig.(2-tərəfli) | 0,363 * | 0,16 | -0,109 | 0,094 | -0,272 | -0,006 |
| | Korrelyasiya | 0,01 | 0,304 | 0.461 | 0,52 | 0,104 | 0,971 |
| Məsuliyyətlilik | Sig.(2-tərəfli) | 0,191 | -0,237 | -0,275 | 0,145 | -0,096 | -0,097 |
| | Korrelyasiya | 0,199 | 0,126 | 0,064 | 0,33 | 0,577 | 0,522 |
| Özündəki və başqa-larındakı nöqsanlara səbirsizlik | Sig.(2-tərəfli) | 0,016 | -0,02 | 0,137 | -0,009 | 0,124 | 0,254 |
| | Korrelyasiya | 0,932 | 0,298 | 0,463 | 0,096 | 0,546 | 0,161 |
| Möhkəm iradə | Sig.(2-tərəfli) | -0,085 | 0,325* | 0,214 | 0,459** | -0,146 | 0,088 |
| | Korrelyasiya | 0,584 | 0,041 | 0,162 | 0,001 | 0,41 | 0,565 |
| Səbirlilik | Sig.(2-tərəfli) | -0,053 | 0,105 | 0,283 | -0,094 | 0,343* | 0,222 |
| | Korrelyasiya | 0,728 | 0,509 | 0,059 | 0,535 | 0,044 | 0,147 |
| Düzlük | Sig.(2-tərəfli) | -0,279 | -0,241 | 0,214 | 0,067 | 0.167 | 0,419** |
| | Korrelyasiya | 0,052 | 0,119 | 0,143 | 0.647 | 0,323 | 0,004 |
| İşlərdə effektivlik | Sig.(2-tərəfli) | 0,393 ** | -0,178 | -0,522 ** | -0,006 | -0,06 | -0,141 |
| | Korrelyasiya | 0,007 | 0,26 | 0,000 | 0.969 | 0,722 | 0,354 |

Bununla yanaşı cədvəl 3.4-dən görünür ki, düzlük ilə yaxşı və sadiq dostların mövcudluğu arasında müsbət korrelyativ əlaqə var (0,364*, p=0,04 səviyyəsində). İşlərdə effektivliklə maddi təmin olunma arasınada (-0,323* səviyyəsində) zəif əlaqə vardır. Amma bu əlaqə əhəmiyyətli deyil. Eləcə də müstəqilliklə mühakimələrdə qiymətləndirmələrdə müstəqillik kimi sərbəstlik dəyərləri arasında da əlaqə müşahidə olunur (r=-0,602**, p>0,05). Amma digərləri kimi bu əlaqə də çox zəifdir. Savadlılıqla dərketmə (r=0,363*) arasında pozitv və əhəmiyyətli əlaqə vardır. Bu o deməkdir ki, təhsilli qadınların dərketmə imkanları daha yüksəkdir və bu asılılıq xətti xarakter daşıyır. Yəni, biri artdıqca digəri də yüksəlir. Möhkəm iradə ilə bərabərlik (r=0,325*) və özünəinam (r=0,459**) arasında müsbət asılılıq müşahidə olunur. Qadınların iradəlilik səviyyəsi yüksək olduqca özünəinam da artır.Ailədə gender probleminə təsir göstərən amillərin sosial-psixoloji tədqiqi nəticəsində aşağıdakı nəticələrə gəlmək olar:

- Tədqiqatdan aydın oldu ki, Azərbaycan ailələrində gender münasibətləri, gender rollarındakı fərqliliklər ailənin tipindən, şəhər və

rayonda məskunlaşmasından asılı olaraq özünü göstərir;

- Tədqiqatda M.Rokiçin Sərvət dəyərləri metodikasından istifadə etməklə şəhərdə və rayonda yaşayan qadınların dəyər ierarxiyasında ciddi fərqlərin özünü göstərməsi, şəhərdə yaşayan qadınlar və rayonda yaşayan qadınların dəyər ierarxiyasında dominantlıq təşkil edən dəyərlər müəyyənləşdirilmişdir. Şəhərdə yaşayan qadınların dəyər ierarxiyasında müstəqillik, möhkəm iradə özünü daha qabarıq göstərir. Rayonda yaşayan qadınlarda isə daha çox adət-ənənələrə bağlılıq, etnik stereotiplər daha güclüdür və hər bir qadın ailəni qorumaq üçün qarşıya çıxan çətinliklərə dözərək zəruri olan dəyərləri seçir;

- Tədqiqat işində ailə vəziyyətindən asılı olaraq qadınların dəyər ierarxiyasının müqayisəsi nəticəsində belə bir nəticəyə gəlmək olar ki, rayonda və şəhərdə yaşayan subay qadınlarda sevgi, rasionalizm, özünəinam, maraqlı iş, yaradıcılıq kimi dəyərlər üstünlük təşkil edir və bunlar əsasən gələcək istəkləri ilə bağlıdır.

- Tədqiqatda M.Rokiçin Sərvət dəyərləri metodikasından istifadə etməklə ümumiləşdirilmiş nəticələr onu göstərir ki, istər rayonda, istərsə də şəhərdə yaşayan qadınlar arasında real vəziyyətlə bağlı mövcud dəyərlər, həmçinin istəklərindən asılı olan dəyərlər ailədə gender münasibətlərinə təsir göstərir və cəmiyyətdə gender stereotiplərini formalaşdırır. Bu da öz növbəsində gender rollarının gerçəkləşdirilməsinə mühüm təsir göstərir;

- Bütün bunlarla yanaşı demoqrafik xüsusiyyətlərindən və ailə tipindən asılı olaraq qloballaşmanın yeni dəyərləri Azərbaycan ailələrinə təsir göstərsə də, milli mənəvi dəyərlər və etnopsixoloji xüsusiyyətlər qorunub saxlanılır. Bu da onu göstərir ki, yeni dəyərlərin inteqrasiyası qadınlar tərəfindən bu və ya digər dərəcədə qəbul olunsa da, onların yerli şəraitə uyğunlaşdırılmasının tərəfdarıdırlar;

- Kütləvi informasiya vasitələrində yayımlanan verilişlər cəmiyyətdə gender rollarının formalaşmasına və ailədaxili münasibətlərə də mühüm təsir göstərir;

- Tədqiqat işi ilə bağlı aparılmış sorğu nəticəsində belə bir nəticəyə gəlmək olar ki, ailədə bir neçə nəslin birgə yaşamasından irəli gələrək stereotip və yönümlərdə özünü göstərən fərqliliklər də gender rollarına təsir göstərir;

- Cəmiyyətdə gender proseslərinə etnik stereotiplərin, sosial yönəlişliyin təsiri ilə yanaşı onu da qeyd etmək lazımdır ki, gender şəxsiyyətinin inkişafına ailə və onun tipi təsir göstərir.

Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı **məqalə və tezislərində** öz əksini tapmışdır:

1. Azərbaycanda Təhsil prosesində qadınların rolu / Gənc Tədqiqatçıların I Beynəlxalq Elmi Konfransı. Bakı: 2013, s.631

2. Təhsildə gender münasibətləri / Təhsildə Gender Aspektləri. Respublika Elmi Konfransının materialları. Bakı: 2013, s.168-175

3. Ailənin tərbiyə funksiyası / Doktorantların və Gənc tədqiqatçıların XVIII Respublika Elmi Konfransının materialları. Bakı: 2013, 2 clddə. II cild, s.308-310

4. Ailədə cinsi sosializasiya məsələsinə dair // Azərbaycan Dillər Universitetinin Elmi xəbərləri, Bakı, 2014, № 3, s.410-414

5. Azərbaycan ailəsində cinsi tərbiyə məsələsi haqqında / XXI əsr Mədəni Paradiqması Multimədəni Aspektdə. Respublika Elmi-praktik Konfransının materialları. Bakı: 2014, s.199-200

6. Gender probleminin yaranma tarixinə dair / Doktorantların və gənc tədqiqatçıların XIX Respublika elmi konfransının materialları. Bakı: 2015, 2 clddə. II cild, s.286-288

7. Azərbaycan ailəsində qız tərbiyəsinin etnopsixoloji xüsusiyyətləri / Gənc Tədqiqatçıların III Beynəlxalq Elmi Konfransı. Bakı: 2015, s. 1250-1252

8. Gender stereotiplərinin formalaşması // Sivilizasiya jurnalı, 2015, № 4, s.31-33

9. Gender probleminin sosial-psixoloji aspektləri // Azərbaycan Dillər Universitetinin Elmi xəbərləri, Bakı, 2015, № 1, s.330-333

10. Этнопсихологические особенности Азербайджанской семьи // Міжнародний Науковий Форум, Збoрник наукових праць, Киев: ТОВ «НВП Интерсервис», 2015, с.66-74

11. Reklamlarda gender rolları // Pedaqoji Universitet Xəbərləri, Bakı, 2015, № 2, s.381-384

12. K.Xorni və qadın psixologiyasi / Gənc Tədqiqatçıların IV Beynəlxalq Elmi Konfransı. Bakı: 2016, s.1579-1580

13. Kütləvi informasiya vasitələri gender probleminə təsir edən əsas amillərdən biri kimi // Psixologiya jurnalı, 2017, № 4, s.111-117

14. Азербайджанская семья: этнопсихологическая характеристика // Научный вестник Херсонского Государственного Университета. Серия: Психологические науки. 2017, № 6, s.159-164

**Гюнай Камил гызы Мамедова**

# СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ АСПЕКТЫ ГЕНДЕРНЫХ ПРОБЛЕМ В СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ СЕМЬЕ

## РЕЗЮМЕ

В этой диссертации изучаются социально-психологические аспекты гендерной проблемы в современной азербайджанской семье, которая является одной из самых актуальных проблем современного периода. В мире глобализации социальная стратификация, гендерные конфликты и влияние новых ценностей на семьи привели к качественно новым изменениям в гендерной проблеме. Говоря гендер, мы подразумеваем поведенческие роли для мужчин и женщин, принятые в обществе, в котором мы живем и психологические аспекты. Говоря пол, мы имеем в виду биологические аспекты мужественности и женственности.

Диссертация состоит из введения, трех глав, восьми подглав, заключения, списка использованной литературы и примечаний.

Первая глава исследования под названием **"Исторический анализ гендерных проблем в психологии"** состоит из трех подглав. В этой главе рассматриваются история появления гендерной проблемы, цели её исследования, в частности роль женщин-психологов и социально-психологические особенности проблемы.

Вторая глава диссертации под заглавием **"Особенности современной Азербайданской семьи"** состоит из трех подглав. В этой главе рассматриваются этнопсихолигеские особенности Азербайджанской семьи и их влияние на гендерные вопросы, вопросы гендерной социализации, а также способы обсуждения и пути подхода к гендерным вопросам в средствах массовой информации.

Последняя глава диссертации под заглавием **"Социально-психологическое исследование гендерных проблем в современной Азербайджанской семье"** состоит из двух подглав. В этой главе говорится об организации и проведении экспериментов, связанных с проблемой, а также проводится анализ, полученных результатов.

В **заключение** были обобщены результаты, полученные в ходе социално-психологического исследования факторов, влияющих на гендерную проблему в семье.

**Gunay Kamil Mammadova**

# SOCIAL-PSYCHOLOGICAL ASPECTS OF GENDER PROBLEMS IN THE MODERN AZERBAIJANI FAMILY

## SUMMARY

The social-psychological aspects of gender problem in the modern Azerbaijani family are investigated in this thesis as one of the most actual problems of the modern period. In the globalizing world social stratification, gender stereotypes and the impact of new values on families have led to qualitatively new changes in the gender problem. Gender refers to the biological aspects of personality and femininity, which is considered as the behavioural and psychological attitude of women and men in the society in which we live.

The thesis consists of the introduction, three chapters containing eight subchapters, the conclusion, the list of the used literature and supplements.

The 1st chapter of the research, entitled **“Historical analysis of gender problems in psychology”**, consists of three subchapters. This chapter explores the original history of the gender problem, its research orientation, the role of women psychologists and the socio-psychological characteristics of the problem.

The 2nd chapter of the thesis, entitled **“The features of the contemporary Azerbaijani family”** consists of three subchapters. In this chapter the ethno-psychological features of the Azerbaijani family and their effects on gender problems, problems of sexual socialization, as well as ways of dealing with gender issues in mass media are discussed.

The last chapter of the thesis, **“Socio-psychological investigations on gender problems in the modern Azerbaijan family”** consists of two subchapters. In this chapter the organization and conduct of experiments on the problems, and analysis of the results have been carried out.

In the **conclusion**, the results of socio-psychological research on the factors affecting the gender problem in the family have been summarized.

Sifariş № 125, tiraj 100
“OPTiMiST” çap mərkəzində çap olunub.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**ГЮНАЙ КАМИЛ гызы МАМЕДОВА**

# СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ АСПЕКТЫ ГЕНДЕРНЫХ ПРОБЛЕМ В СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ СЕМЬЕ

6114.01 – Социальная психология

**А В Т О Р Е Ф Е Р А Т**

Диссертации на соискание ученой степени
доктора философии по психологии

**Баку - 2018**